


# Azərbaycanın enerji diplomatiyası ölkənin iqtisadi potensialını gücləndirir

## *Beynəlxalq səviyyəli sərgi və forumlar bu məqsədə çatmaq üçün real zəmin yaradır*

*"Əslində bu sərgi müstəqil Azərbaycana dünyanın diqqətini cəlb edən birinci ən önəmli addım olmuşdur. Bu sərgi 21-ci dəfədir ki, keçirilir. Sərgiyə isə maraq azalmır, artır... Sərgidə iştirak edən şirkətlərin sayı ildən-ilə artmaqdadır və bu, çox gözəl hadisədir, önəmli əlamətdir. Çünki Azərbaycanın neft-qaz sektoru imkanlarını və fəaliyyətini ildən-ilə daha da gücləndirir... Əlbəttə, sərginin önəmini artıran amil ondan ibarətdir ki, ənənəvi olaraq Amerika Birləşmiş Ştatlarının Prezidenti və Böyük Britaniyanın Baş naziri sərgiyə öz təbriklərini göndərirlər. Bu, sərginin önəmini böyük dərəcədə artırır...". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev "Xəzər neft, qaz, neftayırma və neft kimyası-2006" XIII Beynəlxalq sərgi və konfransın açılış mərasimində bildirib.*

Üstündən illər keçsə də, sərgi dünya miqyasında öz rolunu saxlamaqdadır.

1997-ci il iyulun 27-dən avqustun 6-dək Amerika Birləşmiş Ştatlarına Azərbaycan Prezidenti Heydər Əliyevin rəsmi səfəri iki dövlət arasında qarşılıqlı münasibətlərin inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoydu. 1997-ci il avqustun 1-də Vaşinqtonda iki ölkənin başçıları arasında keçirilmiş görüş zamanı siyasət, təhlükəsizlik, iqtisadiyyat və ticarət sahələrində ikitərəfli əlaqələrin möhkəmləndirilməsi əsasında ABŞ-la Azərbaycan Respublikası arasında partnyorluq münasibətlərinin genişləndirilməsi məqsədəuyğun hesab edilmişdi. 1992-ci ilin oktyabrında qəbul olunmuş "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsinin iki ölkə arasında əməkdaşlığı məhdudlaşdırdığı qeyd edilmiş və bu maddənin ləğv olunması ABŞ prezidenti tərəfindən qətiyyətlə dəstəklənmişdir. Xəzər dənizinin enerji ehtiyatlarının mənimsənilməsində, neft və qaz ehtiyatlarının emalı və nəqlində Amerika neft şirkətlərinin geniş iştirakı, ölkələr arasında enerji siyasəti və kommersiya məsələləri üzrə rəsmi dialoqun yaradılması yüksək qiymətləndirilmişdir.

1997-ci il sentyabrın 2-də isə Heydər Əliyev Azərbaycan Respublikası ilə ABŞ arasında əməkdaşlıq əlaqələrinin hərtərəfli və səmərəli inkişafını, ölkədə demokratik cəmiyyət və bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan islahatların ardıcıl aparılmasını təmin etmək məqsədilə sərəncam imzalamışdır.

Azərbaycanla ABŞ arasında tərəfdaşlığın 30 ildən artıq bir tarixi var. Bu illər ərzində ölkələrimiz arasında bərabərlik, qarşılıqlı hörmətə və enerji təhlükəsizliyi, sülhməramlı əməliyyatlar, terrorla mübarizə və digər sahələr daxil olmaqla uğurlu əməkdaşlıq ənənələri formalaşıb. İki ölkə arasında siyasi əlaqələr dinamik olaraq inkişaf edir. Belə ki, ABŞ Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 25-də tanıyıb, diplomatik münasibətlər isə 1992-ci il fevralın 28-də qurulub. Azərbaycanın ABŞ-da səfirliyi 1992-ci il martın 6-dan, ABŞ-ın Azərbaycanda səfirliyi isə 1992-ci il martın 16-dan fəaliyyət göstərir.

**(davamı 2-ci səhifədə)**

# Azərbaycanın enerji diplomatiyası ölkənin iqtisadi potensialını gücləndirir

(əvvəli 1-ci səhifədə)

Təqdirəlayiq haldır ki, Azərbaycanla ABŞ arasında iqtisadi əlaqələr daim yüksələn xətt üzrə inkişaf edir. Azərbaycan Cənubi Qafqazda ABŞ-ın ən böyük ticarət tərəfdaşıdır. Regionda birbaşa xarici sərmayələr ən çox Azərbaycana yatırılıb (14 milyard ABŞ dollarından çox). Azərbaycanın Dövlət Neft Fondu ABŞ-ın maliyyə təşkilatları və fondları ilə sıx əməkdaşlıq edərək qiymətli kağızlar və daşınmaz əmlak bazarına, təxminən 7,6 milyard ABŞ dolları sərmayə yatırıb, Azərbaycanda 300-dən çox Amerika şirkəti qeydiyyatdan keçib.

Azərbaycan ABŞ-la enerji sahəsində uğurlu əməkdaşlıq edir. 1994-cü ildə Azəri-Çıraq-Günəşli yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi üzrə "Əsrin müqaviləsi"ndə ABŞ şirkətlərinin yer alması ilə başlanan əməkdaşlıq, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən əsas ixrac neft və qaz kəmərlərinin tikintisinə fəal dəstəklə davam etmişdir. 2017-ci il sentyabrın 14-də Azəri-Çıraq-Günəşli yatağının dərinsulu hissəsinin birgə işlənməsinin 2050-ci ilədək uzadılmasına dair yenilənmiş Hasilatın Pay Bölgüsü (HPB) sazişində "Şevron" və "Ekson" şirkətləri də yer alıb.

ABŞ Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsini də dəstəkləyir.

Bu il Müstəqillik Günü münasibətilə ABŞ prezidenti Cozef Baydenin Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubunda da məhz bu məqamlara toxunulub. Təbrik məktubunda ABŞ prezidenti Cozef Bayden Amerika Birləşmiş Ştatlarının Azərbaycanın müstəqilliyini və suverenliyini dəstəklədiyini bir daha təsdiq edir, qarşıdan gələn illər və onilliklərdə Azərbaycanla münasibətləri daha da gücləndirmək arzusunda olduğunu bildirir.

Məktubda həmçinin, Azərbaycanın bölgədə yaratdığı yeni reallıqların dünyanın supergücü hesab olunan ABŞ tərəfindən də qəbul olunduğu ifadə olunur və bu, mühüm imkan kimi dəyərləndirilir: "İndi Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün mühüm imkana bəslənən ümid zamanıdır. Amerika Birləşmiş Ştatları bütün Qafqaz və trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan və Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə və Azərbaycanın iqtisadi, nəqliyyat və insanlararası əlaqələrin qurulmasında kömək etməyə hazırdır", - deyə Cozef Bayden məktubunda bildirib. Bu yanaşma əslində, fövqəlgüc olan ABŞ-ın regionumuzda yaranmış reallığı qəbul etməsi, dəstəkləməsi kimi qiymətləndirilməlidir. Beləliklə, Ağ ev faktiki olaraq Azərbaycanın sülh təşəbbüslərini dəstəklədiyini ən ali səviyyədə bəyan etmiş olur. Eyni zamanda Vaşinqton rəsmi Bakının iqtisadi, nəqliyyat və insanlararası əlaqələrin qurulması istiqamətində gördüyü işlərə kömək etməyə hazır olduğunu bəyan edir.

C.Bayden məktubunda ölkəsilə Azərbaycan arasında diplomatik münasibətlərin 30 illiyinin qeyd edildiyini və bu 30 il ərzində enerji mənbələrinin şaxələndirilməsi, beynəlxalq təhlükəsizlik sahələrində Azərbaycanla əməkdaşlığa yüksək dəyər verdiyini bir daha vurğulayıb. Azərbaycanın enerji resurslarının təmin olunması fonunda ABŞ Azərbaycanı sabitləşdirici faktor hesab edir...

Tanınmış beynəlxalq platforma və regionda neft-qaz sənayesinin əsas tədbiri olan "Xəzər neft və qaz" sərgisi hər il Xəzər regionunun əsas neft-qaz layihələrini müzakirə etmək və enerji təhlükəsizliyinin təmin etmək üçün ən yüksək səviyyəli rəhbərləri bir araya gətirir. Azərbaycanın neft strategiyasında özünəməxsus yer tutan bu sərgi 1994-cü ildən başlayaraq demək olar ki, hər il təşkil olunur.

Bu günlərdə "Bakı Enerji Həftəsi" çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılış mərasimi oldu. Həmişə olduğu kimi, bu dəfə də ABŞ Prezidenti Cozef Bayden Azərbaycan Prezidenti İlham Əliyevə məktub ünvanlayıb. Məktubda deyilir: "Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında qurulmuş 30 illik diplomatik münasibətlər dövründə biz transmilli təhlükələrdə mübarizə, enerji təhlükəsizliyinin gücləndirilməsi, ikitərəfli ticarət və sərmayələrin təşviqi məsələlərində güclü tərəfdaş olmuşuq. Bakıda Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinə evsahibliyi etdiyiniz vaxtda sizi əmin etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın sadiq tərəfdaşı olmaqda davam edir...".

Qeyd edək ki, Bakı Enerji Həftəsi tədbiri özündə üç ayrı layihəni ehtiva edir - 27-ci Beynəlxalq Xəzər Neft və Qaz, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Bərpaolunan Enerji sərgilərini və Xəzər Neft və Qaz Konfransı adı ilə tanınan Bakı Enerji Forumunu. Bu il sərgilərdə və forumda 31 ölkədən 250 şirkət iştirak edir. Forumda iştirak edən ölkələr arasında ABŞ, Almaniya, Azərbaycan, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çin, Finlandiya, Fransa, Gürcüstan, Hindistan, Niderland, İsrail, İspaniya, İsveçrə, İndoneziya, İtaliya, Qazaxıstan, Macarıstan, Norveç, Rumıniya, Rusiya, Serbiya, Səudiyyə Ərəbistanı, Sinqapur, Türkiyə, Xorvatiya, Yaponiya, Yunanıstan, Özbəkistan yer alıb.

Tədbirə ənənəvi olaraq Azərbaycanın Energetika Nazirliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) dəstək göstərir.

Açılış mərasimində çıxış edən ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Laura Loxman demişdir: "...Ölkələrimiz uzun müddətdir ki, yaxın tərfdaşdırlar və Cənubi Qafqazda müstəqillik və demokratiyanı Amerika Birləşmiş Ştatlarından çox heç kim dəstəkləmir. Azərbaycan regionda enerji təhlükəsizliyinin irəliləməsində güclü tərəfdaş olmuşdur. Amerika Birləşmiş Ştatları həm də bizim mühüm iqlim məqsədlərinə dəstək olan etibarlı enerji mənbələrinin yaradılması strategiyaları üzərində Azərbaycanla işləməyə davam etmək əzmindədir".



## Beynəlxalq səviyyəli sərgi və forumlar bu məqsədə çatmaq üçün real zəmin yaradır

Avropa Komissiyasının enerji siyasəti strategiyası və koordinasiya üzrə direktoru Kristina Lobillo Berrero Azərbaycan-Avropa İttifaqı arasında 2006-cı ildə imzalanan enerji sahəsində strateji tərəfdaşlıq üzrə anlaşma memorandumunu xatırladaraq uzunmüddətli müsbət enerji dialoqu üzərində qurulan münasibətlərdən danışdı. O dedi: "Biz Azərbaycanla enerji sahəsində uzunmüddətli tərəfdaşlığımızı həm strateji enerji davamlılığı, həm də yaşıl enerji ambisiyalarımıza mühüm töhfə kimi görürük. Biz enerji sistemlərimizin struktur transformasiyasının sürətləndirilməsi, enerji səmərəliliyi istiqamətində səylərimizin, məhsuldarlığımızın, iqtisadi artımın və sənaye bazarımızın gücləndirilməsi, həmçinin 2050-ci ilə qədər ölkələrimizin iqlim neytrallığı yoluna qədəm qoyması baxımından Azərbaycan və beynəlxalq tərəfdaşlarla işləməyi səbirsizliklə gözləyirik".

"Bakı Enerji Həftəsi"nin iştirakçılarına məktub ünvanlayan Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində çıxış edib. Dövlət başçısı deyib: "Əvvəlcə mən pandemiya səbəbindən ikiillik fasilədən sonra Xəzər Neft və Qaz Sərgisinin yenidən başlanmasına görə təşkilatçılara təşəkkürümü bildirirəm... Mən həmçinin Birləşmiş Ştatların və Birləşmiş Krallığın hökumətlərinə təşəkkürümü bildirmək istərdim. Onlar enerji siyasətimizin və fəaliyyətimizin bütün mərhələlərində bizə hər zaman böyük dəstək veriblər. Biz həmin böyük dəstəklə bu nəticələrə nail ola bildik...".

Bəli, ümid edirik ki, böyük maraq kəsb edən bu beynəlxalq əhəmiyyətli tədbir daha uzunömürlü olacaqdır...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**